AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİNDƏ SƏMƏRƏLİLİYİN QİYMƏTLƏNDİRİLMƏSİ QAYDALARI

1. Ümumi müddəalar

1.1 Azərbaycan Turizm və Menecment Universitetində mövcud kadr siyasətinin əsas vəzifələrindən biri kadr potensialının lazımı səviyyədə saxlanılması, inzibati heyətin işinin səmərəli və keyfiyyətli təşkil olunmasıdır.

1.2 Azərbaycan Turizm və Menecment Universitetində adı çəkilən vəzifələrin yerinə yetirilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 23 may 2001-ci il 97-nömrəli qərarı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında işçilərin attestasiyasının keçirilməsi qaydalarına" uyğun attestasiyalar və eyni zamanda işçi performansının qiymətləndirilməsi məqsədi ilə fərqli metodikalar istifadə edilir.

2. Səmərəliliyin qiymətləndirilmə mexanizmi

2.1 Azərbaycan Turizm və Menecment Universitetində inzibati heyətin işinin səmərəliliyinin qiymətləndirilməsi üçün "90 dərəcə" metodundən istifadə edilir.

2.2. Azərbaycan Turizm və Menecment Universitetində "90 dərəcə" metodunun tətbiqi işçi heyətinin fəaliyyətinin effektivliyini qiymətləndirməyə imkan verir.

2.3 90 dərəcə metodunun tətbiq edilməsi şərtlənir:

a) Perspektivi olan işçilərin aşkar edilməsi

b) İşçilərin əməyinin məhsuldarlığının artırılması

c) Kadr potensialının və rezervlərin formalaşdırılması

d) Aparıcı işçilərin inkişafı

3. 90 dərəcə metodunun tətbiqinə hazırlıq

3.1 Kriteriyaların müəyyən edilməsi - Azərbaycan Turizm və Menecment Universitetində işçilər üçün ümumilikdə kriteriyalar aşağıdakı kimi təsnifləndirilir:

1. Kommunikativ
2. Sərbəst qərar vermək
3. İş davamiyyəti
4. Loyallıq
5. Məsuliyyət
6. Stressə davamlı
7. İdarəçilik
8. Təşəbbüskarlıq

3.2 Sorğu anketinin hazırlanması-işçilərdə 3.1 bəndində qeyd edilən xüsusiyyətlərin qiymətləndirilməsi məqsədi ilə sorğu anketi təşkil edilir. Bu sorğu anketində sıra nömrəsi müxtəlif olan bir yaxud bir neçə sual haqqında sorğu keçirilən işçinin yuxarıda qeyd edilən keyfiyyətlərini müəyyən etməyə yardımçı olur. Adətən anket sorğusunda belə suallar indikator adını daşıyır və bir neçə sual qrup formasında olur.

Sorğunun qiymətləndirilməsi üçün 5 ballıq şkaladan istifadə edilir.

* Cavablar:

1 – məlumatım yoxdur;

2 – həmişə özünü göstərir;

3 – əksər hallarda özünü göstərir;

4 – müəyyən hallarda özünü göstərir;

5 – nadir hallarda özünü göstərir;

0 – heç vaxt özünü göstərmir.

3.3 90 dərəcə mexanizminin iştirakçılarının müəyyən edilməsi. Sorğu keçirilməmişdən öncə iştirakçıları müəyyən etmək lazımdır. Sorğuda işçinin şöbə müdiri və ya bölmə rəhbəri iştirak edir.

3.4. Sorğuda iştirak edənlərin təlimatlandırılması. Hər bir iştirakçı sorğu keçirilməmişdən öncə sorğunun keçirilməsi qaydaları ilə tanış edilməlidir.

3.5.Sorğunun vaxtının razılaşdırılması-Sorğunun vaxtı əvvəlcədən rəhbərliklə razılaşdırılmalıdır. İşçinin illik fəaliyyətinin dəyərləndirilməsi üçün sorğu ildə bir dəfə keçirilir. Sorğunun nəticələri toplanıb rəhbərliyə təqdim edilir.

3.90 dərəcə metodunun tətbiqi

90 dərəcə metodunun hazırlıq mərhələsi başa çatdıqdan sonra sorğunun həyata keçirilməsi mühiti müəyyən edilir. ATMU-da sorğuların göndərilməsi və cavablandırılması elektron poçt vasitəsilə həyata keçirilir. Bu işçilərin iş prosesindən ayrılmadan sorğuda iştirakı baxımından daha effektivdir. Poçt ünvanı ilə struktur bölmələrinin rəhbərlərinə şöbənin işçiləri barədə sorğu blankları göndərilir və bu blanklarda sualların hansı işçi ilə bağlı olması başlıqda qeyd olunur.

Sorğunun cavablandırılmasına 2 iş günü vaxt verilir.

4. Əldə edilən nəticələrin qiymətləndirilməsi

Əldə edilən nəticələrin qiymətləndirilməsi–toplanan anketlər hər bir işçi barəsində qiymətləndirmə aparmağa imkan verir. Prosedurun aparılması üçün haqqında sorğu keçirilən hər bir işçi haqqında bir yaxud bir neçə sorğu blankı bir yerə toplanır. Toplanan sorğu anketlərində indikatorlarla bağlı cavablar toplanır. İndikatorlar üzrə mənfi yaxud müsbət qiymət işçinin indikatorlar qrupu əsasında əvvəlcədən müəyyən edilmiş keyfiyyətinə mənfi və müsbət qiymət verməyə imkan verir.

Anketlər qruplaşdırılarkən hər bir işçi haqqında yaradılan qovluqda işçinin doldurduğu anketlər, işçinin haqqında doldurulan anketlər və işçinin əvvəlcədən müəyyən edilən kriteriyalarla bağlı təhlil sənədi toplanılır.